Ədalət.2016.-17 dekabr.-S.13.

# "Məndən yana bir dünya var, o mənəm"

## (Eldar İsmayılın şeirləri haqqında)

**Əsl şair öz yurdunun torpağının ifadəsidir. Şair qədər dilin şirinliyini şəhdi-şəkərini, xalqın problemlərini, ağrı-acılarını heç nə ifadə edə bilməz. Əgər insanın barmağını iynə batırsa, birinci növbədə o millətin şairi, folkloru, ədəbiyyatı qışqırır. Əgər o ağrı yoxdursa, demək, həmin xalqın ədəbiyyatı, şairi yoxdur. Ona görə də xalqın vəziyyətini, əhval-ruhiyyəsini onun şairindən, şeirlərindən öyrənmək daha düzgündür.**

Məhz bu prizmadan baxanda tanınmış şair Eldar İsmayıl qədər öz xalqını, onun problemlərini ifadə edən çox az şair tanıyıram. O, adi güldən-çiçəkdən yazanda da gülün duruşundan xalqın kədərini, bülbülün intizarını oxuyur. Təbiət hadisələrində xalqın həyəcanlarını qələmə alır. Onun şeir stixiyasında təbiət və cəmiyyət paralel götürülür. Əgər təbiətin bahar vaxtı bir yarpağı saralırsa, demək o zaman insanların bənizində bir sarılıq var. Çünki Eldar İsmayılın şeirlərində təbiət və cəmiyyət məsələləri bir-birini tamamlayır. Təbiətdəki ağrı insana, insandakı ağrı təbiətə köçür.

Eldar İsmayılın sözünün başı da, ayağı da vətəndir. Sevgi şerlərində də vətən yaddan çıxmır. Çünki sevgi duyğuları da xalqın mənəvi sərvətlərinin biridir. Mənəvi sərvət fiziki sərvətin davamıdır və ya əksinə. Şeirdə fiziki coğrafiya mənəvi coğrafiyanı tamamlamalıdır. Bu mənada Eldar İsmayılın poeziyası Dədə Qorqud dastanından başlanğıc götürür. "Torpağı qorumadınsa əkib-becərməyə, əkib becərmədinsə, qorumağa dəyməz".

Eldar İsmayıl poeziyasının dili sadə, aydın olsa da kökləri dərindir. O adı dillə ifadə olunmur, təkcə sözlərin ifadə gözəlliyi deyil, təfəkkür, düşüncə tərzi insanın yaranışından yol başlayır. Ta qədim zamanlardan xalqın folkloru ilə qaynayıb qarışır, ağıla-kamala dolur və müdrikləşir. Poeziya müdrik olanda insanın köməyinə gəlir, dadına çatır.

Eldar İsmayıl heç kəsə bənzəməyən bir şairdir. Misraları dolu sünbül kimidir. Dili axıcı və səmimidir. Əsasən heca vəznində yazır. Hecanın yeni çeşidlərini ustalıqla tapır.

***Naqissən, xəbissən, ürəyin qara***
***Xeyməni yolumda qurma, belə dur.***
***Saxta nəvazişlə mənim halımı***
***Qızara-qızara sorma, belə dur.***

***Başımdan sənələr ötürmüşəm mən,***
***Səndən öz haqqımı götürmüşəm mən.***
***Sənə inamımı itirmişəm mən,***
***Sən Allah, qəlbimi qırma, belə dur.***

Bu şeirdə rədif kimi işlənən "Belə dur" ifadəsi həm quruluş, həm də intonasiya baxımından yenidir. Heca şeirinə vurulmuş bir köşədir.

***Taleyimiz qara yelə düşməsin,***
***Nar bağımız əldən-ələ düşməsin...***
***İstəsən ki, eybim çölə düşməsin***
***Sən buraxma tənha məni, tək məni.***

Şeirin ifadə tərzi nə qədər səlis və təmizdir. İntonasiyaya maneə olan bir dənə də olsun xışıltı yoxdur. Şeirin bu məqamına gələnəcən Eldar İsmayıl böyük bir yaradıcılıq yolu keçib. Göyçə həsrətinə yana-yana dərdin əlində püxtələşib. Tarixi əsərlər oxuyub, xalqın folklor dünyasına baş vurub dilini şirinləşdirib, Qərbi Azərbaycanının coğrafiyasını, etnoqrafiyasını araşdırıb, aşıq şeirimizin bütün çalarlarını mənimsəyib. Bütün gördüklərini təfəkkür süzgəcindən keçirərək maraqlı əsərlər yazıb.

Zaman-zaman ziyalılarımız, elm və sənət xadimlərimiz Eldar İsmayıl haqqında dəyərli fikirlər söyləyiblər.

Xalq şairi Bəxtiyar Vahabzadə Eldar İsmayılın mahnı bəstələnmiş "Allah amanatı" şeiri haqqında yazırdı:

"Bəstəkar R.Nəsiboğlunun E.İsmayılın "Allah amanatı" şeirinə yazdığı nəğmənin not yazısını bilmədiyimdən mahnı haqqında bir söz deyə bilməyəcəm. Amma bu şeir, misralardakı yanğı tüstümü təpəmdən çıxartdı.

***Bəlkə gəldim, mən gəlincə***
***Çöllər allah amanatı -***

misralarındakı ümidə görə də sağ ol, şairim! Ulu tanrı göyçəlilərin muradını gözündə qoymasın!"

Bu da Akademik Yaşar Qarayevin Eldar İsmayılın yaradıcılığı haqqında fikirləridir: "Göyçə poeziyası Göyçəni itirən oğulun - Eldarın "mən"inin ifadəsidir".

Professor Abuzər Xələfov Eldar İsmayıl haqqında yazır: "Eldar İsmayıl" biblioqrafiyası Azərbaycan ədəbi mühitində şair-publisist, yazıçı-jurnalist, ədib-tənqidçi kimi tanınmış bir şəxsiyyətin ədəbi irsinin güzgüsüdür".

Akademik Əhliman Əmiraslanov: "Eldar İsmayıl vətənpərvər şairdir. Layiqli jurnalist kimi də fəaliyyəti çox təqdirəlayiqdir" və akademik Teymur Bünyadovun ərklə: "Əzizim Eldar, sən hələ öz haqqını almamısan. Darıxma, Allah qoysa fəxri adlar da alarsan, prezident təqaüdü də, xalq şairi də" deməsi Eldar İsmayıl yaradıcılığına verilən ən böyük qiymətdir.

Gözəl şair, əməkdar jurnalist Eldar İsmayıl xalqımıza bu qədər sevdirən hansı duyğulardır? Mən dəyərdim ki, onun təfəkküründə çağlayan Göyçə duyğusu, Göyçə həsrəti onu nəinki ölkəmizdə, bütün türk dünyasında tanıdıb və onun bu qədər sevilməyinin əsas mənbəyi elə budur. Göyçə obrazı ədəbiyyatımızda Eldar İsmayılın şair qələmi ilə vətəndaşlıq hüququ qazanıb. Bu şeirlərdəki ağını oxumaq kifayətdir ki, Göyçənin Azərbaycanın tərkib hissəsi olmağına heç bir şübhə yeri qalmasın.

***Ulu Göyçə, məlhəm olum yarana,***
***Canım qurban möhnət dağın yarana!***
***İnanma ki, Eldar bir də yarana,***
***Bir ömrü Vətən deyib əritdi,***
***Söz atını millət deyib səyritdi.***

***Ulu Göyçə niyə məlul baxırsan?***
***Elə baxma, məni oda yaxırsan.***
***Kim deyir ki, sən yadımdan çıxırsan,***
***Mənim kimi səni anan nə qədər,***
***Bu həsrətə canı yanan nə qədər.***

***Ulu Göyçə haqsızlığı götürməz,***
***Belə torpaq yad toxumu bitirməz.***
***Türkün oğlu türklüyünü itirməz,***
***Bir də gördün köhlən üstə qayıtdı.***
***Nərə çəkdi oğuzları ayıltdı.***

Güney Azərbaycan ədəbiyyatında M. Şəhriyar kimdirsə, Quzey Azərbaycanda Eldar İsmayıl odur. Şəhriyarın qibləgahı Heydər babadırsa, Eldar İsmayılın qibləsi Göyçədir. Heydər baba ilə Göyçəyə edilən xitab bütöv Azərbaycan deməkdir. Eldar İsmayılın Göyçə epoxası ədəbiyyatımızın qızıl salnaməsidir. Bu salnamə Göyçəyə, bütövlükdə Qərbi Azərbaycana salınan körpüdür, uzanan qoldur. Bu körpünü Eldar İsmayıl daha da möhkəmləndirib. Bu körpüdən silah daşıyan maşınlar keçmir, ancaq arzu, sevgi daşıyan və yaşadan ürəklər keçir. Göyçəyə silah tutan qollan uzanmır, çiçək dəstəsi tutan qollar uzanır.

Göyçə haqqında möhtəşəm poeziya nümunələri yaradan Eldar İsmayılın indiyə kmi 50-yə yaxın şeir, nəsr, tarixi, publisistik kitabları çap olunub. Onun Göyçə poeziyası elmi tədqiqat və dissertasiya mövzuları üçün əsas bir xammaldır. Bu poeziya orta və ali məktəblərdə tədris olunmalıdır. Çünki Eldar İsmayıl böyük vətən, millət şairidir.

***İçim kürə, Eldar, çölüm ayazdı,***
***Tanrı dedim, taleyimi o, yazdı.***
***Məni məndə tapmısansa o azdı,***
***Məndən yana bir dünya var, o mənəm.***

Eldar İsmayılın ürəyi daim vətən, millət eşqi ilə döyünür. Onun "Ulu Göyçə", "Mən kiməm", "Türkün xilaskarı", "Ulu Turan yolunda" adlı poemalarında odlu vətənpərvərlik duyğuları böyük sənətkarlıqla ifadə olunur.

Eldar İsmayılın "Xüsusi mükafat"a layiq görülmüş "Göyçənin qisası qalır" və "Səttar oğlu" tarixi romanları, "Məndən ötrü Ermənistan yoxdu, yox", "Ağrı dağı qədər ağrılarım var", "Ermənistan türklərinin 1988-ci il soyqırımı" publisistik əsərləri oxucular tərəfindən maraqla qarşılanmışdır. Bu əsərlərdə də o, Azərbaycanı böyük məhəbbətlə tərənnüm edir, onun ədəbi, siyasi sərhədlərini müəyyənləşdirir. Təsadüfi deyil ki, onun Hüseyn İsmayılla birlikdə qələmə aldığı "Göyçənin qisası qalır" romanı -- Azərbaycan Yazıçılar Qurultayının mötəbər tribunasından son dövrün ən yaxşı nəsr əsərlərindən biri kimi dəyərləndirilmişdir.

"Türkün xilaskarı" poeması Türk xalqına, Türkiyə Cümhuriyyətinin banisi Atatürkə həsr olunmuşdur. Bu şairin türk dünyasına sevgisinin, məhəbbətinin təcəssümü deyilmi? Onun bu zəhməti də Türkiyədə yüksək qiymətləndirilmiş, Türk Dünyası Araşdırmaları Uluslararası Elmar Akademiyası Yüksək Yönetim Kurulunun qərarı ilə Türk ədəbiyyatının inkişafında xidmətinə görə "Türk Ədəbiyyatına Hizmət" beynəlxalq ödülü ilə mükafatlandırılmışdır.

Şairin zəhmətinin növbəti dəyərləndirilməsi "Heyrət" ədəbi dərgisinin dövlət və cəmiyyətin təməl prinsiplərinin qorunmasını, inkişafını özündə ehtiva edən səmərəli ədəbi fəaliyyətinə, ictimai vətəndaşlıq mövqeyinə görə "Məslək Şərəf Diplomu" ilə təltif edilməsidir.

Eldar İsmayıl pərəstişkarlarını daha bir xoş xəbər sevindirdi. O, ədəbiyyatda böyük xidmətlərinə görə Birləşmiş Millətlərin İctimai Şurası üzrə Beynəlxalq Mükafatlar İttifaqının "Şərəf və Ləyaqət" Ordeni ilə təltif edilib.

Göründüyü kimi Eldar İsmayıl əzablı, lakin şərəfli bir yol keçib. Onun poeziyası millətimizin pərvanəsidir, vətənimizin əli silahlı əsgəridir. Şair bu yolda çox əziyyətlər çəkmiş, amma heç vaxt onun vətən, Göyçə sevgisi tükənməmişdir.

***Yaltaqlar***
***sırtıqlaşıb***
***bu qoltuqdan o qoltuğa***
***girəndə qorx.***
***Girə-girə harınlaşıb,***
***əyri əllə***
***var toplayıb***
***sərgiləyib,***
***sərəndə qorx.***
***Bu ünsürlər***
***sümsük it tək***
***yalı artıq düşən kimi***
***yal verənə***
***hürəndə qorx***

Bəli, böyürdən-başdan Eldar İsmayıl zirvəsinə "hürənlər" olmuşdur və bu gün də var. Amma şair heç vaxt millət, xalq sevgisindən usanmamışdır.

Bu gün Eldar İsmayılın ilham çeşməsi yazıb-yaratmaq, vətənimizi göz bəbəyi kimi qorumaq, Ulu Göyçəyə qovuşmaq eşqilə coşub çağlayır.

Bu yolda şair qardaşıma yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Qəşəm Nəcəfzadə**